**Güney Azərbaycan Milli Oyanış Hərəkatı (GAMOH)**

24 Yanvar, 2017

Hörmətli cənab Prezident,

Sizi Amerika Birləşmiş Ştatlarının 45-ci seçilmiş prezidenti olmaq münasibətilə ürəkdən təbrik etmək istəyirik.

Güney Azərbaycan Milli Oyanış Hərəkatı (GAMOH) 1995-ci ildə yaradılan dinc və insan haqlarını müdafiə edən hərəkat və təşkilatıdır. Biz 1979-cu ilin İnqilabından sonra İran sərhədləri içində ilk yaranmış əsas təşkilatıq. GAMOH, İran rejiminin əlində və əsarətində olan etnik Azərbaycan Türklərinə qarşı həyata keçən ədalətsizlik üçün maarifləndirmə və oyanış məqsədli qurulmuşdur. Bizim təşkilat öz məqsədlərinə nail olmaq üçün yalnız sülh və Gandhi üsullarından istifadə edir. Güney Azərbaycanlılar 35 milyon olaraq İran əhalisinin və ölkənin ən çox nüfuslu etnik qurupunu təşkil edir. Bunlara baxmayaraq rejim tərəfindən ən doğal və ilkin hüquqlarımızdan ana dilində təhsil və öz müqəddəratını təyinetmə haqlarından məhrum edilmiş durumdayıq. GAMOH, bölgəmizdə gedişatı analiz edir və İranda yaşayan digər etnik və məzhəb azlıqlarının problemlərini bilir və ölkə daxilində demokratiyanı yaymaq üçün kömək etməyə çalışır.

İranın hazırkı şovinist rejimi insan haqlarını ayaqlayaraq  İranda yaşayan qeyri-Fars etnikləri asimilasiyaya sürükləyir və bu BMT konvensiyaları altında universal insan hüquqlarının qorunması ilə bağlı imzaladığı bəyannamənin pozulmasının aydın göstərgəsidir. Bu səbəbdən bir çox milli-mədəni Güney Azərbaycanlı fəallar rejimin ayrı-seçkilik və irqçilik siyasəti nəticəsində həbs və işgəncəyə məruz qalmışlar. Bu fəallar səslərini eşitdirmək üçün tez-tez aclıq aksiyasi keçirirlər.

GAMOH bilir ki ABŞ və onun prezidenti də sadəcə Amerikada deyil bəlkə xarici dövlətlərdə də demokratiyanın yaranmasının tərəfdarlarıdır. Bu səbəblə sizdən bəkləntimiz İran ilə ikili ilişgilərinizdə orada var olan antidemokratik durumu  və insan haqlarından məhrum buraxılan etnikləri və millətləri nəzərdə tutasınız.  Tarix boyu Azərbaycan Türkləri demokratiyaya dəstək vermiş və bu miras sonrakı nəsillərə də təslim ediləcək.

**Güney Azərbaycan Milli Oyanış Hərəkatı (GAMOH)**

Hörmətlə
Donald J Trump,
Amerika Birləşmiş Dövlətlərinin Prezidenti